Deməyin ki, Allah və filankəs istədiyi oldu, əksinə deyin ki: “Allah istədi sonra isə filankəs istədi oldu”

Huzeyfə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğunu rəvayət edir: "Deməyin ki, Allah və filankəs istədiyi oldu, əksinə deyin ki: “Allah istədi sonra isə filankəs istədi oldu”.
[Rəvayət yollarının məcmusuyla səhih olan] [Əbu Davud,Ən-Nəsai Əl-Kubrada və Əhməd rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmana: “Allah istədiyi oldu və filankəsin istədiyi oldu” söyləməyi qadağan etmişdir. "Və ya Allah və filankəsin istədiyi oldu" deməyi də qadağan etmişdir. Çünki, Allahın istəyi qətidir, mütləqdir və bu istəkdə başqa kimsə iştirak etmir. Burada “vəv” hərfinin bağlayıcı kimi işlədilməsi, Allahın başqası ilə şərikliyinə və aralarındakı bərabərliyə işarə edir. Ona görə deməlidir: Allah istədiyi oldu, sonra filankəsin istədiyi. “Və” əvəzinə “sonra” deməklə qulun istədiyini Allahın istədiyinə tabe etdirir, çünki ərəb dilində “sonra”ardıcıllıq və sonralıq bildirir.

http://sunnah.global/hadeeth/az/show/3352